Yeni Azərbaycan Partiyası – 30



# Tarixi zərurətdən yaranan partiya

**Hər bir hadisənin baş verməsi üçün tarixi zərurət olmalıdır. Yeni Azərbaycan Partiyasının meydana gəlməsi də 30 il əvvəl xalqın istəyi, zamanın tələbi ilə baş vermişdi.**

1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının təsis edilməsini sonralar ulu öndər Heydər Əliyev belə xatırlamışdı: "Şübhəsiz ki, Yeni Azərbaycan Partiyasının yaranması mənim adım ilə bağlıdır və bu, mənim iştirakımla olmuşdur... Bu partiyanın yaranması Azərbaycanın, demək olar, əksər bölgələrində, şəhərlərində, rayonlarında, əmək kollektivlərində yaranan əhval-ruhiyyədən irəli gəlmiş bir hadisədir."

Xalqın bu istəyini tarixə "91-lər" kimi daxil olan ziyalılarımız ulu öndər Heydər Əliyevə ünvanladıqları "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciətində belə ifadə etmişdilər: "Bizim bu müraciətimizə minlərlə Azərbaycan vətəndaşı qoşulmağa hazırdır. Hələlik isə ilk addım olaraq bunu bir qrup ziyalı adından biz edirik. Biz həm öz, həm də on minlərlə respublika əhalisi adından Sizdən xahiş edirik ki, yaradılmaqda olan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

Ümummilli liderin həmin müraciətə cavabı Azərbaycanın bugünkü inkişafının əsası oldu. Ulu öndər Heydər Əliyev partiyanın yaradılmasına razılığını "Belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram" sözləri ilə ifadə etmişdi.

Nəhayət, Yeni Azərbaycan Partiyası yaradıldı və bu gün 30 illik yubileyini qeyd edir. Zaman baxımından qısa görünən 30 il Azərbaycan tarixinə hansı uğur səhifələrini yazdı? Bu suala cavab olaraq, ötən dövrün uğurlarının yalnız bir hissəsini yada salırıq. YAP Azərbaycanın dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qaldığı bir zamanda yaradılmışdı. Azərbaycanın davamlı uğurlarının əsasında Yeni Azərbaycan Partiyasının nə qədər çətin, eyni zamanda, şərəfli yol qət etdiyini böyük fəxr hissi ilə qeyd edə bilərik. Partiya yarandığı gündən dövlətə, xalqa xidməti fəaliyyətinin ön xəttinə çıxartdı.

1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın həyatında yeni mərhələnin başlanmasına əsas oldu. Bu da öz növbəsində dahi şəxsiyyətin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının həyatında yeni dövrə yol açdı. Ulu öndər uğurlu və düşünülmüş siyasəti ilə Azərbaycanın gələcəyi naminə mübarizəni dünyaya məhz belə təqdim etdi: güclü, qüdrətli Azərbaycan harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının baş hədəfi olmalıdır.

Azərbaycanın müstəqilliyinin bərpasının ilk illərində yaşadığı faciələrin əsasında dayanan amillərdən biri ölkəmiz haqqında məlumatsızlıq idi. Azərbaycanın ətrafında yaradılan informasiya blokadası erməni yalanlarının ayaq tutub yeriməsinə səbəb olmuşdu. Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdışının ilk günündən bu istiqamətdə fəaliyyət göstərdi və faktlar əsasında dünyanı məlumatlandırdı, ölkəmizi xarici təcriddən xilas etdi.

Əsl xalq lideri kimi Heydər Əliyev hakiiyyətə qayıdışı ilə Azərbaycanı ictimai-siyasi gərginlikdən xilas etdi. Sabitliyin yaradılması digər sahələrin inkişafını da sürətləndirdi. Dövlətçiliyimizin əsasları yaradıldı. Azərbaycan yenidən quruldu. Hər zaman böyük əminliklə və qürur hissi iə qeyd etdiyimiz kimi, ümummilli lider qayıdışı ilə Azərbaycanı dünya azərbaycanlılarına, dünya azərbaycanlılarını isə özünə qaytardı. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın bir amal–azərbaycançılıq ideyası ətrafında sıx birləşməsinə çağırışlar edildi.

Dövlət müstəqilliyimizin, suverenliyimizin qorunması, möhkəmləndirilməsi üçün ulu öndər zəruri birliyə, həmrəyliyə nail oldu. Bu günlərdə ikinci ildönümünü qeyd etdyimiz tarixi Zəfərimizdə bu birliyimiz, həmrəyliyimiz mühüm rol oynadı. Hazırkı postmünaqişə dövrünün reallıqlarından, Azərbaycanın uğurlarından bəhs edərkən Dünya azərbaycanlılarının 30 ildən sonra Qarabağın tacı, mədəniyyət paytaxtımız Şuşaya toplaşaraq, Zəfər qurultayını keçirmələrini, qarşıda dayanan vəzifələri müzakirə etmələrini xüsusi qeyd edirik. Qələbəyə gedən yolu, xalqımızın Vətən sevgisini, öz tarixinə bağlılığını bir daha təhlil edərək bildiririk ki, Heydər Əliyev yolu Azərbaycanı daim zəfərlərə aparır.

Əldə olunan bu qələbələr Yeni Azərbaycan Partiyasına da zəfərlər partiyası kimi nüfuz qazandırır. Xalqın inam və etimadını ölkədə keçirilən prezident, parlament, bələdiyyə seçkilərində qazandığı qələbələr ilə doğruldan, bu günün, sabahın partiyası adına layiq olan YAP nəinki ölkənin, eləcə də bölgənin ən böyük siyasi təşkilatıdır. Fəaliyyətini müasir dövrün tələblərinə uyğun formalaşdıran, təkmilləşdirən, fundamental təməl üzərində inkişaf edən partiya XXI əsrin bütün çağırışlarını yüksək səviyyədə cavablandırır.

Yeni Azərbaycan Partiyasının fəaliyyət istiqamətlərinə və prinsiplərinə diqqət yetirdikdə onun 30 ildə Azərbaycanın bu günü və gələcəyi naminə gördüyü işlərin aydın mənzərəsi göz önündə canlanır. Əgər ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı, bu gün müstəqil və qüdrətli Azərbaycan adlı dövlətin varlığından söhbət gedə bilməzdi. Ümummilli liderin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan bütün sahələrdə inkişaf, tərəqqi dövrünə daxil oldu.

1993–2003-cü illər Azərbaycanın bütün sahələrdə dirçəliş, inkişaf mərhələsi kimi xarakterizə olunur. Məhz o illərdə yaradılan təməl üzərində Azərbaycan son 19 ildə uğurla inkişaf edir, dünyada qalib ölkə kimi tanınır. Son 19 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdilməsi Azərbaycanı dünyanın qüdrətli dövlətləri sırasına daxil etdi. Vətənimiz beynəlxalq maliyyə qurumlarının hesabatlarında da ən islahatçı ölkə kimi qərarlaşdı.

Azərbaycan bu gün müasir ənənələrə bağlı olan güclü dövlət kimi bütün dünyada nüfuz qazanıb. Adını tarixə Azərbaycanın müstəqilliyinin xilaskarı kimi qızıl hərflərlə yazan ulu öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamı nəticəsində 2020-ci ildə tarixi Zəfərimizə imza atdıq. Tarixi Zəfərimiz qürurumuzun, milli kimliyimizin təqdimatıdır.

Qarşıda qalib Azərbaycanı, Yeni Azərbaycan Partiyasını daha möhtəşəm zəfərlər gözləyir. Bu gün Qarabağımız, Şərqi Zəngəzurumuz azaddır və həyatının yeni mərhələsini yaşayır. Dövlət başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevin bu məkandan dünyaya ünvanladığı hər bir mesaj Azərbaycanın gücünün, qüdrətinin, xalqımızın birliyinin, Zəfərimizin reallıqları əsasında müəyyənləşdirilən hədəflərimizin təqdimatıdır. Bütün bunlarla biz bir daha dünyaya sübut etdik ki, böyük xalqıq, məğrur xalqıq!

***Malik HƏSƏNOV,***
***Milli Məclisin deputatı***